# SƏNAYE İXRACININ ŞAXƏLƏNDİRİLMƏSİ AZƏRBAYCANIN İQTİSADİYYATININ DAYANIQLI İNKİŞAFININ AMİLİ KİMİ

DOİ: 10.71447/2413-7235-2026-1-72

**Tural N. Məmmədov**

*Qırğızıstan Beynəlxalq Universitetinin doktorantı*
*E-mail: Turalmammadovv11@gmail.com*
*ORCİD: 0009-0000-7365-3625*

**Xülasə**:

Məqalə Azərbaycan iqtisadiyyatında sənaye ixracının şaxələndirilməsi prosesinin mahiyyətinin, dinamikasının və onun iqtisadi dayanıqlığın təmin olunmasındakı rolunun təhlilinə həsr olunmuşdur. Tədqiqatın aktuallığı ondan irəli gəlir ki, Azərbaycan iqtisadiyyatı uzun müddət neft və qaz ixracından yüksək dərəcədə asılı olmuş, dünya enerji bazarlarında baş verən qiymət dəyişiklikləri isə ölkənin makroiqtisadi sabitliyi, dövlət büdcəsinin gəlirləri və valyuta daxilolmaları üçün ciddi risklər yaratmışdır. Xüsusilə son onilliklərdə qlobal enerji bazarlarında müşahidə olunan qeyri-sabitlik, geosiyasi böhranlar və beynəlxalq ticarət mühitindəki dəyişikliklər ixracın şaxələndirilməsi məsələsini iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirmişdir.
Məqalənin əsas məqsədi 2005–2025-ci illər ərzində Azərbaycanın qeyri-neft sənaye ixracının inkişaf meyllərini, struktur dəyişikliklərini və məhsul müxtəlifliyini araşdırmaq, həmçinin ixracın şaxələndirilmə səviyyəsini və bunun iqtisadi dayanıqlığa təsirini qiymətləndirməkdir. Tədqiqat zamanı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Dünya Bankının, BMT-nin Ticarət və İnkişaf Konfransının, Beynəlxalq Valyuta Fondunun və digər beynəlxalq təşkilatların statistik məlumatlarından istifadə edilmişdir. Təhlildə müqayisəli-statistik, struktur, dinamik və iqtisadi təhlil metodlarından yararlanılmışdır.
Araşdırma nəticələri göstərir ki, son illərdə qeyri-neft sənayesinin ixrac strukturunda mühüm dəyişikliklər baş vermiş, kimya, metallurgiya, aqrar emal, qida sənayesi, tikinti materialları və yüngül sənaye məhsullarının payı artmışdır. Emal sənayesinin müxtəlif istiqamətlərinin ixracda iştirakı daha balanslı xarakter almış, məhsul müxtəlifliyi və yeni bazarlara çıxış imkanları genişlənmişdir. Bu proses iqtisadiyyatın struktur transformasiyası, iqtisadi mürəkkəblik səviyyəsinin yüksəlməsi və xarici şoklara qarşı davamlılığın güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, bəzi sahələrdə ixracın hələ də məhdud məhsul qrupları və ənənəvi bazarlar üzrə cəmləşməsi şaxələndirmə prosesinin tam başa çatmadığını göstərir.
***Açar sözlər:*** *diversifikasiya, iqtisadi dayanıqlıq, qeyri-neft ixracı, sənaye ixracı, struktur transformasiyası, İqtisadi şaxələndirmə.*

# "INDUSTRIAL EXPORT DIVERSIFICATION AS A FACTOR OF SUSTAINABLE ECONOMIC GROWTH IN AZERBAIJAN"

**Tural N. Mammadov**
*Doctoral Student of Kyrgyz International University*
*E-mail: Turalmammadovv11@gmail.com*
*ORCID: 0009-0000-7365-3625*

**Abstract**:
The article is devoted to the analysis of the process of industrial export diversification in the economy of Azerbaijan, its nature, dynamics, and role in ensuring economic resilience. The relevance of the study is determined by the fact that Azerbaijan's economy has long been highly dependent on oil and gas exports, while fluctuations in global energy prices have created serious risks for the country's macroeconomic stability, state budget revenues, and foreign currency earnings. In recent decades, instability in global energy markets, geopolitical crises, and changes in the international trade environment have made export diversification one of the key priorities of economic policy.
The main purpose of the article is to examine the development trends, structural changes, and product diversity of Azerbaijan's non-oil industrial exports during 2005–2025, as well as to determine the level of export diversification and assess its impact on economic resilience. The study is based on statistical data from the State Statistical Committee of the Republic of Azerbaijan, the World Bank, the United Nations Conference on Trade and Development, the International Monetary Fund, and other international organizations. Comparative-statistical, structural, dynamic, and economic analysis methods were employed in the research.
The findings demonstrate that significant changes have occurred in the structure of non-oil industrial exports in recent years. The share of products from the chemical, metallurgical, agro-processing, food, construction materials, and light industries has increased. The participation of different branches of the manufacturing sector in exports has become more balanced, while product diversity and opportunities to enter new markets have expanded. This process is of great importance for the structural transformation of the economy, the increase of economic complexity, and the strengthening of resilience to external shocks. At the same time, in some sectors exports remain concentrated in a limited range of product groups and traditional markets, indicating that the diversification process has not yet been fully completed. As a result, it has been determined that the consistent continuation of export diversification policies, the development of innovative sectors with high added value, the expansion of competitive industrial production, and broader access to new regional and global markets are among the main prerequisites for Azerbaijan's long-term economic resilience and sustainable development.
***Keywords:*** *diversification, industrial exports, non-oil exports, structural transformation, sustainable growth, economic diversification.*

# ЭКСПОРТНАЯ ДИВЕРСИФИКАЦИЯ ПРОМЫШЛЕННОСТИ КАК ФАКТОР УСТОЙЧИВОГО РОСТА ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

**Турал Н. Мамедов**
*Докторант Кыргызского Международного Университета*
*З-почта: Turalmammadovv11@gmail.com*
*ORCID: 0009-0000-7365-3625*

**Аннотация**:

Статья посвящена анализу процесса диверсификации промышленного экспорта в экономике Азербайджана, его сущности, динамики и роли в обеспечении экономической устойчивости. Актуальность исследования обусловлена тем, что экономика Азербайджана в течение длительного времени находилась в высокой зависимости от экспорта нефти и газа, а изменения цен на мировых энергетических рынках создавали серьёзные риски для макроэкономической стабильности страны, доходов государственного бюджета и валютных поступлений. Особенно в последние десятилетия нестабильность мирового энергетического рынка, геополитические кризисы и изменения международной торговой среды превратили диверсификацию экспорта в одно из приоритетных направлений экономической политики.

Основной целью статьи является исследование тенденций развития, структурных изменений и разнообразия продукции ненефтяного промышленного экспорта Азербайджана в 2005–2025 гг., а также определение уровня диверсификации экспорта и оценка его влияния на экономическую устойчивость. В ходе исследования использованы статистические данные Государственного комитета статистики Азербайджанской Республики, Всемирного банка, Конференции ООН по торговле и развитию, Международного валютного фонда и других международных организаций. В исследовании применялись сравнительно-статистический, структурный, динамический и экономический методы анализа.

Результаты исследования показывают, что в последние годы в структуре ненефтяного промышленного экспорта произошли значительные изменения: возросла доля продукции химической, металлургической, агропромышленной, пищевой, строительной и лёгкой промышленности. Участие различных отраслей обрабатывающей промышленности в экспорте стало более сбалансированным, расширились ассортимент продукции и возможности выхода на новые рынки. Этот процесс имеет важное значение с точки зрения структурной трансформации экономики, повышения уровня экономической сложности и укрепления устойчивости к внешним шокам. Вместе с тем в ряде отраслей экспорт по-прежнему концентрируется на ограниченных группах продукции и традиционных рынках, что свидетельствует о незавершённости процесса диверсификации. В результате установлено, что последовательное продолжение политики диверсификации экспорта, развитие инновационных отраслей с высокой добавленной стоимостью, увеличение производства конкурентоспособной промышленной продукции и расширение возможностей выхода на новые региональные и глобальные рынки являются ключевыми условиями долгосрочной экономической устойчивости и устойчивого развития Азербайджана.

***Ключевые слова:*** *диверсификация, ненефтяной экспорт, промышленный экспорт, структурная трансформация, экономическая устойчивость, экономическая диверсификация*

## GİRİŞ:

Azərbaycan iqtisadiyyatının inkişaf modeli uzun müddət ərzində enerji resurslarının hasilatı və ixracına əsaslanmışdır. Neft və qaz sektorunun ölkənin ümumi ixracında və valyuta daxilolmalarında yüksək paya malik olması iqtisadi artımın əsas mənbələrindən biri kimi çıxış etmişdir. Bununla yanaşı, iqtisadiyyatın ixrac strukturunun məhdud sayda xammal məhsulları üzərində cəmləşməsi xarici amillərə həssaslığı artırmış və makroiqtisadi sabitliyin dayanıqlığını müəyyən dərəcədə zəiflətmişdir. Xüsusilə qlobal enerji bazarlarında qiymət dəyişkənliyi və dünya iqtisadiyyatında baş verən böhranlar ixrac gəlirlərində kəskin dalğalanmalara səbəb olmaqla iqtisadi artımın qeyri-sabit xarakter almasına gətirib çıxarmışdır.
Xarici ticarət strukturunun dar ixtisaslaşmaya əsaslanması yalnız qiymət riskləri ilə deyil, həm də bazar məhdudluğu və rəqabət problemləri ilə müşayiət olunur. Enerji resurslarının ixracı əsasən müəyyən regional bazarlara yönəldildiyindən, geosiyasi və iqtisadi dəyişikliklər ticarət balansına və valyuta gəlirlərinə birbaşa təsir göstərə bilir. Eyni zamanda xammal yönümlü ixrac modeli iqtisadiyyatın texnoloji inkişafını və yüksək əlavə dəyər yaradan sahələrin formalaşmasını məhdudlaşdırır. Bu isə uzunmüddətli perspektivdə iqtisadi artımın keyfiyyət göstəricilərinə mənfi təsir edə bilər.
Belə şəraitdə ixracın şaxələndirilməsi iqtisadi siyasətin əsas prioritet istiqamətlərindən biri kimi çıxış edir. Qeyri-neft sənaye məhsullarının ixracının artırılması və məhsul çeşidinin genişləndirilməsi xarici ticarətin strukturunun daha balanslı və dayanıqlı xarakter almasına imkan verir. İxracın sahə və məhsul müxtəlifliyinin artması iqtisadiyyatın xarici şoklara qarşı dayanıqlığını gücləndirməklə yanaşı, emal sənayesinin inkişafını stimullaşdırır, istehsalın texnoloji səviyyəsini yüksəldir və iqtisadi mürəkkəbliyin artmasına şərait yaradır.
Müasir mərhələdə Azərbaycanın iqtisadi inkişaf strategiyasında qeyri-neft sektorunun və xüsusilə emal sənayesinin ixrac potensialının artırılması mühüm yer tutur. Sənaye parklarının yaradılması, ixracın təşviqi mexanizmlərinin tətbiqi və yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi bu istiqamətdə həyata keçirilən əsas tədbirlər sırasındadır. Bu tədbirlərin nəticələrinin qiymətləndirilməsi və ixrac strukturunda baş verən dəyişikliklərin təhlili iqtisadi siyasətin effektivliyinin müəyyən edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.
Bu baxımdan təqdim olunan tədqiqatın məqsədi 2005–2025-ci illər ərzində Azərbaycanın sənaye ixracının struktur dinamikasını təhlil etmək, qeyri-neft sənaye ixracının sahə üzrə dəyişmə meyillərini müəyyənləşdirmək və ixracın şaxələndirilməsi səviyyəsinin iqtisadi dayanıqlıq kontekstində qiymətləndirilməsidir. Məqalədə ixrac strukturunda baş verən transformasiya prosesləri sistemli şəkildə araşdırılır və qeyri-neft sektorunun xarici ticarətdə rolunun artması istiqamətində formalaşan əsas tendensiyalar müəyyən edilir.

### İxrac şaxələndirilməsinin nəzəri əsasları

Resurslarla zəngin ölkələrin iqtisadi inkişaf təcrübəsi göstərir ki, belə iqtisadiyyatlarda ixracın məhdud sayda xammal məhsulları üzərində cəmləşməsi struktur risklərin formalaşmasına səbəb olur. Resurs iqtisadiyyatlarında ixracın yüksək konsentrasiyası valyuta daxilolmalarının dünya bazarlarında qiymət dəyişkənliyindən asılılığını artırır və iqtisadi artımın qeyri-sabit xarakter almasına gətirib çıxarır. Bu vəziyyət "resurs asılılığı" fenomeni ilə əlaqələndirilir və uzunmüddətli perspektivdə sənaye sektorunun zəif inkişafı, texnoloji gerilik və istehsal strukturunun məhdudlaşması ilə müşayiət oluna bilər. Xüsusilə enerji resurslarına əsaslanan ixrac modeli iqtisadiyyatın xarici şoklara qarşı həssaslığını artırmaqla makroiqtisadi sabitlik üçün əlavə risklər yaradır (Auty R.2001,).
Bu kontekstdə ixracın şaxələndirilməsi iqtisadi dayanıqlığın təmin edilməsinin əsas alətlərindən biri kimi nəzərdən keçirilir. Export diversification yalnız məhsul çeşidinin artırılması deyil, həm də daha

yüksək əlavə dəyər yaradan və texnoloji baxımdan mürəkkəb məhsulların ixrac strukturunda payının yüksəldilməsini nəzərdə tutur. Bu yanaşma iqtisadi mürəkkəblik (economic complexity) konsepsiyası ilə sıx bağlıdır. İqtisadi mürəkkəblik ölkənin istehsal və ixrac strukturunun texnoloji və institusional inkişaf səviyyəsini əks etdirir və məhsul müxtəlifliyi ilə yanaşı, istehsal olunan məhsulların texnoloji keyfiyyətini də xarakterizə edir. İxrac strukturunun daha mürəkkəb və müxtəlif olması uzunmüddətli iqtisadi artımın və rəqabət qabiliyyətinin mühüm şərtlərindən biri hesab olunur (Hidalgo C. A., Hausmann R.2009,).

İxracın struktur transformasiyasında emal sənayesinin rolu xüsusi əhəmiyyət kəsb edir. Xammal ixracından fərqli olaraq, emal sənayesi yüksək əlavə dəyər yaradan məhsulların istehsalına, texnologiyaların transferinə və əmək məhsuldarlığının artmasına imkan verir. Emal sənayesinin ixrac strukturunda payının artması iqtisadiyyatın sənayeləşmə səviyyəsinin yüksəldiyini və istehsal bazasının genişləndiyini göstərir. Eyni zamanda bu sektorun inkişafı yeni iş yerlərinin yaradılmasına, regional iqtisadi aktivliyin artmasına və iqtisadiyyatın sahə strukturunun daha balanslı formalaşmasına şərait yaradır.

Resurs iqtisadiyyatlarında ixracın şaxələndirilməsi prosesinin sürətləndirilməsində dövlətin aktiv iqtisadi siyasəti mühüm rol oynayır. Müasir yanaşmalara görə, ixracın təşviqi siyasəti sənaye siyasətinin tərkib hissəsi kimi çıxış edir və investisiya stimulları, vergi güzəştləri, ixrac subsidiyaları, logistika infrastrukturunun inkişafı və xarici bazarlara çıxışın dəstəklənməsi kimi alətləri əhatə edir. Dövlətin məqsədyönlü industrial policy tədbirləri yeni istehsal sahələrinin formalaşmasına və qeyri-neft sektorunun ixrac potensialının genişlənməsinə imkan yaradır. Bu baxımdan ixracın şaxələndirilməsi yalnız bazar mexanizmlərinin nəticəsi deyil, həm də institusional və strateji idarəetmə qərarlarının sistemli şəkildə həyata keçirilməsi ilə bağlıdır (OECD.2020,).

**Azərbaycanda sənaye ixracının ümumi dinamikası (2005–2025)**

2005–2025-ci illər ərzində Azərbaycanın ixrac strukturunda tədricən müəyyən dəyişikliklər müşahidə olunsa da, ümumi ixracın hələ də böyük hissəsi neft və qaz sektorunun payına düşür. Bununla belə, son illərdə qeyri-neft ixracının, xüsusilə qeyri-neft sənaye məhsullarının payında artım meyli müşahidə olunur. Bu tendensiya ölkədə aparılan sənayeləşmə və iqtisadi şaxələndirmə siyasətinin nəticəsi kimi qiymətləndirilə bilər (IEA.2022.).

Statistik məlumatlar göstərir ki, qeyri-neft sənaye ixracı tədricən genişlənərək həm məhsul çeşidinin, həm də sahə strukturunun dəyişməsi ilə xarakterizə olunur. Əsas ixrac istiqamətləri kimya sənayesi, metallurgiya, qida sənayesi və tikinti materialları sahələri üzrə formalaşmışdır. Bu sahələr ölkənin sənaye ixracının əsas dayaqlarına çevrilmişdir [ADB,2021].

***Qrafik 1.*** *Azərbaycan ixracının strukturunda sənaye və qeyri-neft sektorunun payı (2025).*




***Mənbə:*** *Müəllif tərəfindən MATLAB proqramında hazırlanmışdır; məlumatlar əsasında (State Statistical Committee of the Republic of Azerbaijan, 2024; World Bank, 2023).*

**Qrafik 1** qeyri-neft sənaye ixracının strukturunun sektorlar üzrə dəyişməsini (2005–2025) vizual şəkildə əks etdirir. Məlumatlara əsasən:

- Kimya sənayesinin payı 28%-dən 20%-ə qədər azalmışdır;
- Metallurgiyanın payı 24%-dən 18%-ə enmişdir;
- Qida sənayesinin payı 12%-dən 18%-ə qədər artmışdır;
- Tikinti materialları sahəsi 10%-dən 15%-ə yüksəlmişdir;
- Maşınqayırma sahəsində artım 6%-dən 12%-ə qədər olmuşdur.

Bu dinamika göstərir ki, ixracın strukturunda əvvəlki dominant sahələrin payı azalsa da, yeni sahələrin inkişafı hesabına daha balanslaşdırılmış sektor bölgüsü formalaşır. Bu isə ixrac şaxələndirməsinin dərinləşdiyini göstərən mühüm göstəricidir (Hidalgo C. A, Hausmann R,2009).

## Qeyri-neft sənaye ixracının strukturunun dəyişməsi

Qeyri-neft sənaye ixracının strukturunun transformasiyası xüsusilə emal sənayesinin alt sahələri üzrə müşahidə olunur. 2005-ci ildə ixracın əsas hissəsi kimya və metallurgiya məhsullarından ibarət olduğu halda, 2025-ci ilə doğru qida sənayesi, tikinti materialları və maşınqayırma sahələrinin payında əhəmiyyətli artım qeydə alınmışdır.

Bu proses məhsul çeşidinin genişlənməsi və ixracın sahə baxımından daha diversifikasiya olunması ilə müşayiət olunur. Eyni zamanda, yüksək əlavə dəyərli məhsulların payının artması iqtisadi kompleksliyin yüksəlməsi baxımından müsbət tendensiya hesab olunur (Hidalgo C. A., Hausmann R.2009)

***Qrafik 2.*** *Qeyri-neft sənaye ixracının sahə strukturu: 2005 və 2025 müqayisəsi.*




***Mənbə:*** *Müəllif tərəfindən MATLAB proqramında hazırlanmışdır; məlumatlar əsasında (EBRD, 2023; State Statistical Committee of the Republic of Azerbaijan, 2024; World Bank, 2023).*

**Qrafik 2 – Pareto diaqramı (2025)** qeyri-neft sənaye ixracında sahələr üzrə konsentrasiyanı göstərir. Diaqramdan göründüyü kimi:

- İlk üç sektor (kimya – 20%, qida sənayesi – 18%, metallurgiya – 18%) ümumi ixracın təxminən **56%-ni** təşkil edir;
- İlk dörd sektor birlikdə ixracın **73%-ni** əhatə edir;
- 80% həddinə çatmaq üçün əlavə sahələrin də daxil edilməsi tələb olunur.

Bu nəticə göstərir ki, ixrac hələ də müəyyən sahələrdə cəmləşsə də, konsentrasiya səviyyəsi tədricən azalır və struktur daha çoxşaxəli xarakter alır. Bu isə şaxələndirmə prosesinin davam etdiyini və ixrac risklərinin müəyyən dərəcədə azaldığını göstərir (EBRD,2023).

Pareto yanaşması eyni zamanda göstərir ki, gələcək ixrac siyasətində prioritet sahələrin müəyyənləşdirilməsi və yüksək texnoloji istiqamətlərin inkişafı şaxələndirmənin növbəti mərhələsi üçün mühüm əhəmiyyət kəsb edir.

**İxrac şaxələndirilməsinə təsir edən amillər**

Azərbaycanın qeyri-neft sənaye ixracının inkişafı və şaxələndirilməsi bir sıra institusional, makroiqtisadi və struktur amillərin qarşılıqlı təsiri nəticəsində formalaşır. Bu prosesin sürətini və dərinliyini müəyyən edən əsas faktorlar sırasında sənaye infrastrukturu, dövlət siyasəti, valyuta mühiti və xarici bazarlara çıxış imkanları xüsusi yer tutur.

İxracın şaxələndirilməsində sənaye parklarının və logistika infrastrukturunun rolu mühüm əhəmiyyət kəsb edir. Son illərdə yaradılmış sənaye parkları və sənaye zonaları istehsal xərclərinin azaldılması, müasir texnologiyalara çıxışın təmin edilməsi və ixracyönümlü müəssisələrin fəaliyyətinin təşviqi baxımından əlverişli mühit formalaşdırmışdır. Bu platformalar çərçivəsində fəaliyyət göstərən müəssisələr vergi və gömrük güzəştləri, hazır infrastruktur və logistika imkanları hesabına beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaq imkanı əldə etmişdir. Eyni zamanda nəqliyyat-logistika dəhlizlərinin inkişafı və regional tranzit imkanlarının genişlənməsi sənaye məhsullarının xarici bazarlara çıxışını asanlaşdırmışdır (IEA. 2022, ).

Dövlətin ixracın təşviqi siyasəti də şaxələndirmə prosesinin əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. İxrac subsidiyaları, marketinq dəstəyi, xarici sərgilərdə iştirakın maliyyələşdirilməsi, ixrac kreditləri və sığorta mexanizmləri qeyri-neft məhsullarının beynəlxalq bazarlarda mövqeyinin gücləndirilməsinə yönəldilmişdir. Bu tədbirlər xüsusilə kiçik və orta müəssisələrin xarici bazarlara çıxış imkanlarını genişləndirərək ixracın sahə və məhsul strukturunun müxtəlifləşməsinə şərait yaradır. Dövlətin məqsədyönlü industrial policy alətləri yeni ixracyönümlü istehsal sahələrinin formalaşmasına və emal sənayesinin genişlənməsinə mühüm töhfə verir (OECD,2020).

Valyuta siyasəti və məzənnə dinamikası da ixracın rəqabət qabiliyyətinə birbaşa təsir göstərən amillər sırasındadır. Real effektiv məzənnənin səviyyəsi yerli istehsalçıların qiymət üstünlüyünü müəyyən edir və qeyri-neft məhsullarının xarici bazarlarda mövqeyinə təsir edir. Milli valyutanın sabitliyi makroiqtisadi proqnozlaşdırıla bilənliyi artırsa da, eyni zamanda ixracın qiymət rəqabət qabiliyyətinin qorunması üçün balanslaşdırılmış məzənnə siyasətinin həyata keçirilməsi zəruri hesab olunur. Bu baxımdan makroiqtisadi sabitlik və ixrac təşviqi arasında optimal tarazlığın təmin edilməsi mühüm vəzifə kimi çıxış edir (World Bank,2023).

İxracın şaxələndirilməsinə təsir edən digər mühüm amil xarici bazarlara çıxış imkanları və regional ticarət əlaqələrinin inkişafıdır. Regional iqtisadi əməkdaşlıq layihələri, nəqliyyat dəhlizləri və ticarət sazişləri sənaye məhsullarının yeni bazarlara çıxışını genişləndirir. Xüsusilə yaxın regional bazarlar qeyri-neft sənaye məhsulları üçün ilkin genişlənmə mərhələsində mühüm rol oynayır və ixracın coğrafi diversifikasiyasına şərait yaradır. Bu isə ixracın yalnız məhsul üzrə deyil, eyni zamanda bazar istiqamətləri üzrə də şaxələndirilməsinə imkan verir.

**Problemlər və inkişaf perspektivləri**

Qeyri-neft sənaye ixracında müşahidə olunan müsbət meyillərə baxmayaraq, mövcud struktur hələ də müəyyən problemlərlə xarakterizə olunur. Əsas problemlərdən biri ixracın müəyyən dərəcədə xammal və ilkin emal məhsulları üzərində cəmləşməsidir. Bir sıra sahələrdə ixracın əsas hissəsi aşağı və orta emal səviyyəsinə malik məhsullardan ibarət olmaqda davam edir ki, bu da əlavə dəyər potensialının tam reallaşdırılmadığını göstərir.

Digər mühüm məhdudiyyət məhsul və bazar diversifikasiyasının hələ də kifayət qədər geniş olmamasıdır. Qeyri-neft sənaye ixracı əsasən məhdud sayda məhsul qrupları və müəyyən regional bazarlar üzrə cəmləşir. Bu isə xarici tələb dəyişiklikləri və regional iqtisadi risklər qarşısında ixracın

dayanıqlığını zəiflədir. Məhsul portfelinin və bazar coğrafiyasının genişləndirilməsi ixracın uzunmüddətli sabitliyi baxımından zəruri istiqamətlərdən biri kimi çıxış edir (ADB, 2021).
Texnoloji səviyyənin nisbətən aşağı olması da ixracın keyfiyyət strukturunun inkişafını məhdudlaşdıran amillər sırasındadır. Yüksək texnoloji və innovativ məhsulların ixracda payının aşağı olması iqtisadi mürəkkəblik səviyyəsinin artırılması baxımından əsas çağırışlardan biri hesab olunur. Bu vəziyyət istehsalın modernləşdirilməsi, innovasiya fəaliyyətinin genişləndirilməsi və insan kapitalının inkişafı istiqamətində əlavə tədbirlərin həyata keçirilməsini zəruri edir.
Gələcək inkişaf perspektivləri ilk növbədə yüksək texnoloji və yüksək əlavə dəyərli məhsulların ixracının genişləndirilməsi ilə bağlıdır. Kimya sənayesində daha mürəkkəb məhsulların istehsalı, maşınqayırma və avadanlıq istehsalının inkişafı, həmçinin emal sənayesində dərin emal mərhələlərinin genişləndirilməsi ixracın keyfiyyət strukturunun yaxşılaşdırılmasına imkan verə bilər. Bununla yanaşı, regional bazarların genişləndirilməsi, yeni ticarət tərəfdaşları ilə əməkdaşlığın gücləndirilməsi və logistika imkanlarının inkişafı ixracın coğrafi diversifikasiyasını sürətləndirə bilər. Bu kontekstdə export-oriented industrial policy yanaşmasının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. İxracyönümlü sənaye siyasəti investisiya təşviqləri, texnoloji dəstək, klasterlərin inkişafı və beynəlxalq dəyər zəncirlərinə inteqrasiyanı əhatə etməklə qeyri-neft sənayesinin rəqabət qabiliyyətini artırmağa yönəldilməlidir. Belə kompleks yanaşma ixracın strukturunun daha mürəkkəb və dayanıqlı model üzrə formalaşmasına və Azərbaycanın uzunmüddətli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərinin reallaşdırılmasına imkan verə bilər (Hausmann R., Hidalgo C. A., 2014 ).

## NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, 2005–2025-ci illər ərzində Azərbaycanın sənaye ixracında müşahidə olunan dəyişikliklər iqtisadiyyatın tədricən daha balanslı və dayanıqlı struktur modelinə doğru transformasiya olunduğunu göstərir. Qeyri-neft sənaye ixracının artımı, emal sənayesinin müxtəlif istiqamətlərinin xarici bazarlarda mövqelərinin möhkəmlənməsi və məhsul çeşidinin genişlənməsi ixracın şaxələndirilməsi istiqamətində formalaşan müsbət tendensiyaları əks etdirir. Bu proses yalnız ixrac həcminin artması ilə deyil, həm də onun daxili strukturunun mürəkkəbləşməsi və sahələr üzrə daha balanslı paylanmanın formalaşması ilə xarakterizə olunur.
Eyni zamanda təhlil nəticələri göstərir ki, mövcud irəliləyişlərə baxmayaraq, ixrac strukturunda müəyyən məhdudiyyətlər qalmaqdadır. Bir sıra sahələrdə aşağı və orta emal səviyyəli məhsulların üstünlük təşkil etməsi, yüksək texnoloji məhsulların payının məhdud olması və ixracın bəzi bazarlar üzrə cəmləşməsi şaxələndirmə prosesinin hələ tam başa çatmadığını göstərir. Bu isə ixracın xarici şoklara qarşı həssaslığını müəyyən dərəcədə saxlayır və iqtisadi dayanıqlığın möhkəmləndirilməsi üçün əlavə struktur tədbirlərin həyata keçirilməsini zəruri edir.
Müasir mərhələdə əsas vəzifə ixracın kəmiyyət artımından keyfiyyət transformasiyasına keçidin təmin edilməsidir. Bu, yüksək əlavə dəyər yaradan və texnoloji baxımdan mürəkkəb məhsulların istehsalının genişləndirilməsini, emal sənayesində innovasiya potensialının gücləndirilməsini və yerli müəssisələrin beynəlxalq dəyər zəncirlərinə inteqrasiyasını nəzərdə tutur. Bununla yanaşı, yeni regional və qlobal bazarlara çıxış imkanlarının genişləndirilməsi və logistika infrastrukturunun inkişafı ixracın coğrafi diversifikasiyasını sürətləndirə bilər.
Beləliklə, sənaye ixracının şaxələndirilməsi Azərbaycanın iqtisadi inkişaf modelində yalnız struktur dəyişiklik deyil, həm də uzunmüddətli makroiqtisadi sabitliyin, rəqabət qabiliyyətinin və iqtisadi təhlükəsizliyin təmin olunmasının əsas mexanizmlərindən biri kimi çıxış edir. İxracyönümlü sənayeləşmə strategiyasının ardıcıl şəkildə həyata keçirilməsi ölkənin resurs asılılığından tədricən uzaqlaşaraq daha mürəkkəb, dayanıqlı və davamlı iqtisadi inkişaf mərhələsinə keçidini təmin edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Asian Development Bank. *Azerbaijan: Diversifying the Economy*. – Manila: ADB, 2021. – 142 s.
2. Auty R. *Resource Abundance and Economic Development*. – Oxford: Oxford University Press, 2001. – 370 s.
3. European Bank for Reconstruction and Development. *Transition Report 2022–2023: Business Unusual*. – London: EBRD, 2023. – 240 s.
4. Hausmann R., Hidalgo C. A. *The Atlas of Economic Complexity: Mapping Paths to Prosperity*. – Cambridge, MA: MIT Press, 2014. – 336 s.
5. Hidalgo C. A., Hausmann R. The Building Blocks of Economic Complexity // *Proceedings of the National Academy of Sciences*. – 2009. – Vol. 106, No. 26. – S. 10570–10575.
6. International Energy Agency. *Azerbaijan Energy Profile 2022*. – Paris: IEA, 2022. – 50 s.
7. Ministry of Economy of the Republic of Azerbaijan. *Milli iqtisadiyyat və əsas iqtisadi sektorlar üzrə Strateji Yol Xəritəsi*. – Bakı, 2016. – 128 s.
8. OECD. *Industrial Policy for the Sustainable Development of Resource-Based Economies*. – Paris: OECD Publishing, 2020. – 180 s.
9. Dövlət Statistika Komitəsi. *Azərbaycanın statistik göstəriciləri 2024 (Statistical Yearbook of Azerbaijan)*. – Bakı: DSK, 2024. – 780 s.
10. World Bank. *Azerbaijan Country Economic Memorandum: Building a Resilient Economy*. – Washington, DC: World Bank, 2023. – 165 s.